**UOT: 31**
**ORCID: 0009-0000-5268-1459**
**https://doi.org/10.52094/RMKR8715**

**Rəna Qasımlı Afər qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**r.qasimli08@gmail.com**

# YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT MƏSULİYYƏTİ VƏ MÜHAKİMƏ PROSEDURLARI

**Xülasə:** Müasir hüquq sistemlərində yetkinlik yaşına çatmayanların mühakimə prosesi yalnız hüquqi deyil, həm də sosial və psixoloji aspektləri özündə cəmləşdirən bir sahədir. Bu yaş qrupunun törətdiyi hüquqpozmalara münasibət, onların tərbiyəsi və cəmiyyətə inteqrasiyası ilə bağlı yanaşmalar daim dəyişməkdədir. Ənənəvi cəza yanaşmalarının yetkinlik yaşına çatmayanlar üzərində mənfi təsir göstərməsi alternativ metodlardan istifadəyə ehtiyac yaratmışdır. Məqalədə yetkinlik yaşına çatmayan qanunpozucuların beynəlxaq çərçivədə mühakimə prosesi və onlara tətbiq olunan alternativ tərbiyə metodları araşdırılmışdır.

**Açar sözlər:** yetkinlik yaşına çatmayan şəxs, cinayət, hüquq, cəza tədbirləri, məhkəmə, reabilitasiya metodu.

Tarixən hüquq pozuntusuna yol verən yetkinlik yaşına çatmayan şəxslərin hüquqi mühakiməsi və cəza tədbirləri ağır formada həyata keçirilmişdir. Hüquq pozuntusuna yol verən uşaqlarla böyüklərin mühakiməsi eyni formada aparılmış və qiymətləndirimişdir. 19-cu əsrdən etibarən yetkinlik yaşına çatmayan qanunpozucuların mühakimə prosesi zamanı müəyyən dəyişikliklər və humanist yanaşmalar edilmişdir. İlk dəfə 2 iyul 1899-cu ildə ABŞ-ın Çikaqo şəhərində yeniyetməlik yaşına çatmayanlar üçün xüsusi məhkəmə yaradılmışdır [1]. Yuvenal Məhkəmələrin yaranması ilə yetkinlik yaşına çatmayanların hüquqi müdafiəsi təmin edildi. Qanun pozuntusu törətmiş yetkinlik yaşına çatmayanların müdafiəsi 1989-cu ildə qəbul edilmiş Uşaq Hüquqları Konvensiyasının müddəaları əsasında aparılır.

Beynəlxalq insan hüquqları uşaq hüquqlarını, eləcə də Yuvenal Ədalət Məhkəməsini əlaqələndirən ümumi prinsiplər müəyyən etmişdir. Bu prinsiplərdən ən vacibləri aşağıdakı 4 prinsipdir:

1. Ayrı-seçkiliyin olmaması prinsipi;
2. Uşaq maraqlarının üstünlüyü prinsipi;
3. Uşağın yaşamaq, həyatda qalmaq və inkişaf etmək hüququ;
4. Uşaq fikirlərinə hörmət etmək vəzifəsi.

Digər vacib bir prinsip Uşaq Hüquqları Konvensiyasının 12-ci maddəsində qeyd edilmişdir:

1. İştirakçı dövlətlər bu baxışları özünə formalaşdırmağa qadir olan uşağı həmin baxışları özünə aid bütün məsələlərlə əlaqədar azad ifadə etmək hüququ ilə təmin edirlər, həm də uşağın baxışlarına, onun yaşına və yetkinliyinə müvafiq surətdə lazımi diqqət yetirirlər.

2. Bu məqsədlə uşağa imkan verilir ki, ona aid hər hansı məhkəmə araşdırmasının və ya inzibati araşdırmanın gedişində ya bilavasitə, ya da nümayəndə, yaxud müvafiq orqan vasitəsilə onu milli qanunvericliyin prosessual normalarında nəzərdə tutulan qaydada dinləsinlər.

Qanun pozuntusu törətmiş yetkinlik yaşına çatmayan şəxslərin müdafiəsi ilə əlaqədar beynəlxalq müstəvidə qəbul edilmiş qərarlar uşağın ləyaqət və mənlik hisslərinin qorunmasının vacibliyini ön plana qoyur və məsələyə sosial-psixoloji tərəfdən yanaşır. Yetkinlik yaşına çatmayanların mühakimə prosesi zamanı sərt cəza tədbirləri əvəzinə tərbiyə tədbirlərinin tətbiq olunması yuvenal məhkəmənin başlıca prinsipi kimi çıxış edir. Beynəlxalq insan hüquqları uşaqlarla bağlı hüquqlarda müəyyən tələblər qoyur. Bu tələblərdən biri 18 yaşdan aşağı qanun pozuntusu törətməkdə təqsirləndirilən şəxsə ölüm cəzası və sonradan azad edilmək imkanı olmadan ömürlük həbs cəzasının tətbiqini məhdudlaşdırır. Pekin qanunları da yetkinlik yaşına çatmayanlar haqda ölüm cəzasını qadağan edir [2]. 18 yaşdan aşağı cinayət törətməkdə təqsirləndirilən şəxslərə bağlı qərarlar beynəlxalq insan hüquqları çərçivəsində qəbul edilməlidir. İstənilən halda cismani və işgəncə xarakterli cəzalar yolverilməzdir.

Digər ölkələrin də bu yaş kateqoriyasına aid qəbul etdiyi qərarları təhlil edərsək, kəskin cəzalandırma üsulları əvəzinə insan hüquqlarını və fərdin rifahını ön planda tutan qanunların tərəfdarı olduqlarını görə bilərik. Bir sıra Tokio qaydalarına nəzər salaq:

1. Qaydalar irq, rəng, cins, yaş, din, dil, siyasi və ya digər baxışlar, milli və ya sosial mənsubiyyət, mülkiyyət, doğum və ya digər statusa görə heç bir ayrı-seçkilik olmadan tətbiq edilməlidir;

2. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlərin təyin edilməsi və tətbiq edilməsi qanunla müəyyən edilməlidir;

3. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlərin seçimi aşağıda göstərilən meyarlar əsasında aparılmalıdır:

- Cinayətin təbiəti və ağırlığı;
- Qanun pozucusunun şəxsiyyəti və bioqrafiyası;
- Hökm çıxarılmasının məqsədləri;
- Zərər çəkmiş şəxslərin hüquqları;

4. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlərin təyin edilməsinə qanun pozucusunun razılığı formal icraat və ya məhkəmə araşdırmasından qabaq və ya əvəzinə tətbiq edilən azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlər münasibətində məcburidir [3].

Mühakimə prosesi ərzində hər iki tərəf, yəni hüquq pozuntusu törədən və zərərçəkən şəxslər sosial-psixoloji, maddi-mənəvi çətinliklərə məruz qalır. Məsələyə zərərçəkən şəxs tərəfindən diqqət yetirsək, həmin şəxsin narahatlıq və qorxu hissləri keçirdiyini, eləcə də ətrafdakı insanlara etibarsız və inamsız yanaşdığını müşahidə edə bilərik. Hüquq pozuntusu törədən yeniyetməlik yaşına çatmayan şəxs tərəfdən baxarsaq, narahatlıq hissi ilə birgə ətraf mühitdən təcrid olunduğunu görə bilərik. Cinayət prosesi hüquq pozuntusu törədən şəxs üçün bir növ damğa xarakteri daşıyır və cəmiyyətə inteqrasiyasını çətinləşdirir. Digər bir tərəfdən zərərçəkən şəxs həmin insana qarşı qəzəb və kin hissləri bəsləyir. Bu zaman münaqişə daha da gərginləşir və çıxılmaz hal alır. Belə gərgin bir vəziyyət yarandıqda ənənəvi cəza tədbirləri çıxış yolu olaraq görünsə də, məsələni həll etmir. Məhz bu səbəbdən məsələyə alternativ tərbiyə metodları, anlayışyönümlü həll yolları tətbiq olunmalıdır. Alternativ həll yollarından biri bərpa yanaşmasıdır. Münaqişəli hallarda, gərgin situasiyalarda bərpa yanaşmasından istifadə edilir. Bərpaedici ədalət cəzavermə yönümlü yanaşmadan fərqli olaraq təqsirkar şəxsin məsuliyyətini dərk etməsini, zərərçəkmişlə üzləşdirilməsini və cəmiyyətə yenidən inteqrasiyasına çalışır. Bərpa yanaşmasınada zərər yetirən şəxs və zərərçəkən şəxs görüşdürülür. Mediator da bu görüşdə iştirak edir və tərəflər arasında anlaşma yaratmağa zərərin yüngülləşdirilməsinə və sosial ədalətin bərpasına yönəlmiş konstruktiv dialoqun qurulmasına şərait yaradır.

Reabilitasiya metodu zamanı baş verən görüşlər 3 proqramın köməyi ilə həyata keçirilə bilər:

- Bərpa mediasiyası
- Ailə konfransları

- İcma daxili

**Bərpa mediasiyası.** Bərpa mediasiyasında ilk olaraq mediator hər iki tərəflə ayrı-ayrılıqda görüş keçirir. Daha sonra mediatorun iştirakı ilə tərəflərin görüşü təyin edilir. Görüş zamanı tərəflər bir-birini dinləyir və ətraflı məlumat əldə edirlər. Bu mediasiyanın əsas məqsədi tərəflər arasındakı gərginliyi aradan qaldırmaq, münasibətləri bərpa etməkdən ibarətdir. Əsas hədəf barışıq müqaviləsinin imzalanmasına nail olmaqdır. Barışıq müqaviləsi müəyyən dərəcədə cəzanın yüngülləşdirilməsinə təsir edir.

**Ailə konfransları.** Ailə konfransları Yeni Zelandiyanın yerli əhalisi olan maorilərə aiddir. 1989-cu ildə "Uşaqlar, yeniyetmələr və onların ailələri" haqqında qanun qəbul edildi [4]. Qanuna əsasən yetkinlik yaşına çatmayanlar cinayət törətdiyi zaman ailə konfranslarına yönləndirilirlər. Bu hal yalnız qətl törədildiyi zaman keçərli deyil. Ailə konfransında tərəflərin yaxın sosial ətrafı, sosial işçilər, polislər və vəkillər də iştirak edir. Münaqişəli vəziyyət konfransda müzakirə edilir və ümumi razılığa gəlinir. Ailə konfransları Avstraliya, Niderland, Rusiya və Böyük Britaniyada da həyata keçirilir.

**İcma daxili.** İcma daxili əsrlərlə münaqişələrin həllində istifadə edilən bir metoddur və hər bir xalqın mədəniyyətində özünəməxsus şəkildə formalaşmışdır. Münaqişənin həlli zamanı maraqlı tərəflərin hər birinin problemi müzakirə edilir və ortaq bir razılığa gəlirlər. Bu prosesin əsas xüsusiyyətlərindən biri də iştirakçı sayının çoxluğudur.

BMT tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyası cinayət məsuliyyəti üçün konkret minimum yaş müəyyən etmir, lakin dövlətləri belə bir yaş müəyyən etməyə təşviq edir. Minimum yaş müəyyən edilərkən yetkinlik yaşına çatmamış şəxsin emosional, əqli və intellektual yetkinliyə əsaslanaraq minimum 14 və ya 16 yaş təyin etmək tövsiyə olunur. Argentina Çin, Almaniya, İtaliya, Polşa, İspaniya, İsveç və Ukrayna daxil olmaqla bəzi ölkələr 14 və ya daha yuxarı olaraq təyin ediblər [5]. Beynəlxalq qaydalar yetkinlik yaşına çatmayanların reabilitasiyası və reinteqrasiyasına diqqət yetirərək, yetkinlik yaşına çatmayanların cinayət ədliyyə sistemindən fərqli olan yetkinlik yaşına çatmayanlara dair ədliyyə sistemini müdafiə edir. Əsas prinsiplərə aşağıdakılar daxildir:

**Uşaq Dostu Ədalət Sistemi:** BMT-nin Uşaq Hüquqları Konvensiyasının 40-cı maddəsi, uşaq dostu ədalət sisteminin qurulmasını tələb edir. Bu, uşaqların yaşına, inkişaf səviyyəsinə və psixoloji vəziyyətinə uyğun mühakimə prosedurlarının tətbiqini nəzərdə tutur.

**Məxfilik və Mühafizə:** Yetkinlik yaşına çatmayanların mühakiməsi zamanı məxfilik təmin edilməli, onların şəxsiyyəti qorunmalıdır. Bu onların gələcəkdə cəmiyyətə reinteqrasiyasını asanlaşdırır.

**Mütəxəssis Yardımı:** Mühakimə prosesində, psixoloq və sosial işçilər kimi mütəxəssislərin iştirakı təmin edilməli, uşağın ehtiyacları nəzərə alınmalıdır.

**Alternativ tədbirlər:** Bəzi hallarda, həbs cəzası əvəzinə, uşaqlara alternativ tədbirlər tətbiq oluna bilər. Bu onların təhsil və sosial inkişafını dəstəkləyir.

Azərbaycanda da beynəlxalq hüquq normalarına əsasən yetkinlik yaşına çatmayan cinayət törədən şəxslərin cəzalandırılması zamanı humanist yanaşma üstün tutulur. Azərbaycanda 2020-2024-cü illərdə 14-17 yaş aralığında cinayət törətmiş şəxslərə qarşı müəyyən cəza tədbirləri görülmüşdür, belə ki, 51 nəfər cərimə edilmiş, 16 nəfər ictimai işlərə cəlb olunmuş və 18 nəfər islah işləri ilə cəzalandırıimışdır.

Beynəlxalq yanaşma yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti və mühakimə prosedurları zamanı onların hüquqlarını qorumaq, ədalət və mərhəmət arasında tarazlıq yaratmaq, yetkinlik yaşına çatmayanların məsuliyyətli bir fərd kimi cəmiyyətə reinteqrasiyasını təmin etmək məqsədi daşıyır. Beynəlxalq hüquq bu sahədə xüsusi qaydalar və standartlar müəyyən edərək uşaqların ədalət sisteminə daxil olmalarını təmin edir.

## Ədəbiyyat siyahısı

1. UN. Guidelines for Action on Children in the Criminal Justice System. 1997
2. Boole,K.L.The Juvenile Court:Its Origin, History, and Procedure.1928
3. Hazel, N., Bateman, T. A History of Youth Justice.2021
4. Feld, B.C., Bishop, D.M. The Oxford Handbook of Juvenile Crime and Juvenile Justice. 2013
5. Winterdyk, J. Juvenile Justice: International Perspectives, Models and Trends. 2014
6. Carrington, K. Youth Justice in a Global Context.2013
7. Finley, L. Juvenile Justice: History and Philosophy. 2007

**Rana Gasimli Afar gizi**

**Criminal Liability and Judicial Procedures for Juveniles**

**Summary**: In modern legal systems, the prosecution process of juveniles encompasses not only legal but also social and psychological aspects. The approach to offenses committed by this age group, as well as their rehabilitation and reintegration into society, is constantly evolving. The negative impact of traditional punitive approaches on juveniles has necessitated the use of alternative methods. This paper explores the prosecution process of juvenile offenders within an international framework and examines alternative educational and rehabilitative methods applied to them.

**Key words:** juvenile, crime, legal rights, punitive measures, court, rehabilitation method

**Рена Гасымлы Афар гызы**

**Уголовная ответственность и судебные процедуры в отношении несовершеннолетних**

**Резюме:** В современных правовых системах судебный процесс над несовершеннолетними является областью, охватывающей не только юридические, но и социальные и психологические аспекты. Отношение к правонарушениям, совершаемым этой возрастной группой, к их воспитанию и интеграции в общество постоянно меняется. Негативное влияние традиционных методов наказания несовершеннолетних привело к необходимости использования альтернативных.

**Ключевые слова:** несовершеннолетний, преступление, закон, меры наказания, суд, метод реабилитации

*Məqalənin redaksiyaya daxilolma tarixi: 04.11.2025*

*Rəyçilər: ADMİU-nun baş müəllimi Ayxan Şahbazov; ADMİU-nun baş müəllimi Kənan Bağırov*